Xalq qəzeti.- 2024.- 7 dekabr (№270).- S.16.



# BDU-da yubiley sessiyası

**Bakı Dövlət Universitetində multimedia və elektron kommunikasiya kafedrasının müdiri, professor Qulu Məhərrəmlinin 70 illik yubileyinə həsr olunan"Azərbaycan televiziyası müstəqillik illərində: əsas inkişaf tendensiyaları" mövzusunda elmi sessiya keçirilib.**



Elmi məclisi giriş sözü ilə açan Mətbuat Şurasının sədri Rəşad Məcid Qulu Məhərrəmlinin jurnalist fəaliyyətinin Azərbaycan Televiziyasında çoxillik səmərəli yaradıcılıqla əlamətdar olduğunu söyləyib. O qeyd edib ki, televiziya nəzəriyyəçisi və təcrübəli media mütəxəssisi kimi tanınan Qulu Məhərrəmli uzun illərdir ki, praktik və elmi yaradıcılığı ilə yanaşı, bilik və təcrübəsini BDU jurnalistika fakültəsinin tələbələrinə öyrədir.

BDU-nun rektoru Elçin Babayev yubilyarı təbrik edərək bildirib ki, Qulu Məhərrəmli istedadlı telejurnalist, geniş elmi biliyi və zəngin təcrübəsi ilə tanınan pedaqoqdur: "Onun nəzəriyyə ilə təcrübəni uğurla birləşdirməsi jurnalistika təhsilini keyfiyyətcə yüksəltməyə layiqli xidmət göstərir. 1991-ci ildən BDU-da çalışan Qulu Məhərrəmli ali məktəbin dəyərli professorudur. O, BDU-nu Azərbaycan Mətbuat Şurasında təmsil edən 2 əməkdaşımızdan biridir".

Elçin Babayev uzunmüddətli səmərəli elmi-pedaqoji fəaliyyətinə görə və 70 illik yubileyi münasibətilə Qulu Məhərrəmliyə ali məktəbin Fəxri fərmanını təqdim edib.

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri, filologiya elmləri doktoru Rövşən Məmmədov qeyd edib ki, Qulu Məhərrəmli Azərbaycan televiziya məkanının tanınmış simalarından biridir: "O, ünsiyyət mədəniyyəti, media etikası və audiovizual nitq kimi sahələrdə dəyərli araşdırmalar aparıb".

Sessiyanın davamında Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev, kafedra müdirləri Cahangir Məmmədli və Xatirə Hüseynov Qulu Məhərrəmlinin jurnalist yaradıcılığı, televiziya tənqidi və jurnalistika təhsili sahəsində fəaliyyəti mövzularında məruzələr ediblər.

Sonda yubiliyar elmi-pedaqoji və jurnalist fəaliyyətinə verilən dəyərə görə təşəkkür edib.

**Namiq QƏDİMOĞLU**
**XQ**